# "SABAHIN SORAĞINDA"

## Rafiq Yusifoğlunun yeni kitabı

**Mənə elə gəlir ki, şair, professor, ədəbiyyatşünas Rafiq Yusifoğlunu "Ədalət"in oxucularına fərdi qaydada təqdim etməyə ehtiyac yoxdur. Çünki o, kifayət qədər oxucusu olan, imzasını hər kəsə tanıdan və sevdirən qələm adamlarımızdan biri olmaqla yanaşı, həm də "Ədalət"də özünün bir-birindən maraqlı elmi-publisist yazıları ilə də çıxış edən müəlliflərimizdən biridir. Bax, bu mənada mən bir oxucu, bir həmkar kimi Rafiq Yusifoğlunun təmtəraqlı təqdimatına lüzum görmürəm. Ən azından atalar dedimşkən, "görünən dağa bələdçi gərək deyil".**

Bəli, bu günlərdə şair dostum Rafiq Yusifoğlu ürək sözlərini həkk etdiyi aftoqrafla birlikdə yeni kitabını mənə bağışladı. Və mən həmişə maraqla oxuduğum bu dostumun yeni şeir çələnginin daha çox uşaq şeirlərindən ibarət olduğunu hiss edəndən sonra kitaba marağım bir az da artdı. Çünki bu gün uşaqlar üçün yazan müəlliflərimizin sayı o qədər də çox deyil. Üstəlik, Rafiq Yusifoğlu kimi yazanlar da bəlkə də yoxdu. Ona görə də mən kitabı həm də uşaqlarımıza, nəvələrimizə bir hədiyyə kimi də qəbul etdim. İndi onu sizə təqdim edəndə bu nüansı da nəzərə almışam. Axı, Rafiq Yusifoğlu yazır ki:

**Su çırpılar qayaya,**
**Dalğa-dalğa sovrular.**
**Yel çırpılar qayaya,**
**Qanadları ovular.**

**Bu qaya mürgüsündən**
**Yoxmu sizi oyadan?**
**Doğru sözdü, axı yel,**
**Nə aparar qayadan?**

Bəli, "Qayalar" şeirindən gətirdiyimiz bu nümunə hər bir uşağın dərhal yaddaşına hopmaq, dilinin əzbəri olmaq hüququ qazanmaq imkanına malikdi. Bu da özü-özlüyündə Rafiq Yusifoğlunun uşaqların ruhunu, dilini bilməsindən xəbər verir. Ona görə də onun şeirləri uşaqlar üçün çox asanlıqla qavranılır, dərk olunur. Məsələn:

**- Adı nədi bu çayın?**
**- Tanımırsan, Arazdı.**




**Sən görən çaylar bunun,**
**Yanında çox dayazdı.**

**Bu tayda güllü yazdı,**
**O tayda sevinc azdı.**
**Heç darıxma, ay Gülyaz,**
**O tayda da olar yaz.**

Zənnimcə, bu şeiri şərh etməyə, onun uşaq yaddaşına təsirini incələməyə ehtiyac yoxdur. Çünki hər şey göz önündədir. Ümumiyyətlə, çox nəfis şəkildə şair Zahid Xəlilin, (yeri gəlmişkən, o da uşaqlarımızın sevimlisi olan müəlliflərdəndir) redaktorluğu ilə işıq üzü görmüş bu kitab böyüklü-kiçikli bütün oxuculara bir sovqatdı. Ona görə yaş senzini qabardıram ki, böyüklərin də bəzən ürəyindən uşaq olmaq keçir. Mən də bizim hamımızı nəzərə alıb səmimi duyğularını uşaq sevgisiylə cilalayan və onu mükəmməl şəkildə bizə çatdıran şair dostum Rafiq Yusifoğluna yeni uğurlar diləyir və "axarlı olsun! deyirəm.

Və sonda onun yazdığı misralarla kitabın sizə təqdimatına bir növü nöqtə qoyuram.

**Qartala bax, qartala,**
**Qanad açar yorulmaz.**
**Zirvələrin üstüylə,**
**Uçar, uçar yorulmaz.**
**Öz gücünə inanar,**
**Biləndə aşağıda**
**Neçə qarlı zirvə var!**

**Əbülfət MƏDƏTOĞLU**

Ədalət.- 2016.- 14 iyul.- S. 3.